**UDC:** 327.
**LBC:** 63.3(2)6-6
**MJ №** 233
10.33864/2617-751X.2024.v7.i3.229-240

# Factors Influencing the Foreign Policy of Azerbaijan in the Context of Globalization

**Ilaha Alizade***
**Elshad Mirbashir oghlu****

**Abstract.** At the end of the 20th century, global processes led to a fundamental shift in the international political environment. In addition to the emergence of new independent states within the international system, various international actors, such as transnational financial organizations and non-governmental organizations-which have gained significant importance due to globalization-contributed to the transformation of the international relations system. These changes were reflected in the foreign policies of many states. Azerbaijan, which gained independence in 1991, redefined its foreign policy to protect its national interests while leveraging the opportunities of international cooperation in the context of global integration. Among Azerbaijan's foreign policy priorities is integration into the European Union system across economic, political, social, and cultural spheres, as well as into the broader global political arena, particularly where Western countries are represented. By joining this system, Azerbaijan enhances its ability to utilize its resources more efficiently, safely, and cost-effectively, ensuring a prosperous life for its people. Additionally, it accelerates the entry of advanced world technologies, investment, and foreign capital into the country's economy, fostering the development of the non-oil sector.

**Keywords:** international relations, globalization, foreign policy, Azerbaijan.

---

* Doctoral student of Baku State University; Baku, Azerbaijan (corresponding author)
E-mail: ibrahimova.ilaha@gmail.com
https://orcid.org/0009-0006-6078-9762
** Doctor of political sciences, professor,
Academy of Public Administration under the President of the Republic of Azerbaijan, deputy of the Milli Majlis of the Republic of Azerbaijan; Baku, Azerbaijan
E-mail: elshad.mirbashiroglu@gmail.com
**To cite this article:** Alizade, I., & Mirbashir oghlu, E. [2024]. Factors Influencing the Foreign Policy of Azerbaijan in the Context of Globalization. *"Metafizika" journal, 7(3),* pp.229-240.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.229-240

**Article history:**
*Received: 10.05.2024*
*Accepted: 01.07.2024*

**УДК:** 327.
**ББК:** 63.3(2)6-6
**MJ №** 233
10.33864/2617-751X.2024.v7.i3.229-240

# Факторы, влияющие на внешнюю политику Азербайджана в условиях глобализации

**Илаха Ализаде***
**Эльшад Мирбашир оглу****

**Абстракт.** В конце XX века глобальные процессы, происходившие в мире, привели к кардинальному изменению международной политической среды. Помимо появления новых независимых государств в международной системе, различные международные игроки, такие как транснациональные финансовые организации и неправительственные организации, которые имеют большое значение в результате глобализации, привели к трансформации системы международных отношений. Эти изменения отразились на внешней политике государств. Азербайджан, получивший независимость в 1991 году, реформировал свой внешнеполитический курс с целью защиты своих национальных интересов, используя при этом возможности международного сотрудничества на фоне международной интеграции. Среди внешнеполитических приоритетов Азербайджана важное место занимает интеграция в систему Евросоюза (в экономической, политической, социальной, культурной сферах) и глобальное мирополитическое пространство, в котором представлены западные страны. Присоединившись к этой системе, Азербайджан получает возможность более эффективно, безопасно и бесплатно использовать имеющиеся у него ресурсы для обеспечения благополучной жизни своего народа. Это также дает возможность для более быстрого входа передовых мировых технологий, инвестиций и иностранного капитала в экономику страны, развития ненефтяного сектора.

**Ключевые слова:** международные отношения, глобализация, внешняя политика, Азербайджан

---

* Докторант Бакинского Государственного Университета; Баку, Азербайджан (ответственный автор)
E-mail: ibrahimova.ilaha@gmail.com
https://orcid.org/0009-0006-6078-9762
** Доктор политических наук, профессор,
Академия государственного управления при Президенте Азербайджанской Республики, депутат Милли Меджлиса Азербайджанской Республики; Баку, Азербайджан
E-mail: elshad.mirbashiroglu@gmail.com
**Цитировать статью:** Ализаде, И. & Мирбашир оглу, Э. [2024]. Факторы, влияющие на внешнюю политику Азербайджана в условиях глобализации. *Журнал «Metafizika», 7(3),* с.229-240.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.229-240

***История статьи:***
*Статья поступила в редакцию: 10.05.2024*
*Отправлена на доработку: 03.06.2024*
*Принята для печати: 01.07.2024*

**UOT:** 327.
**KBT:** 63.3(2)6-6
**MJ №** 233
10.33864/2617-751X.2024.v7.i3.229-240

# Qloballaşmanın Azərbaycanın xarici siyasətinə təsiri

**İlahə Əlizadə***
**Elşad Mirbəşiroğlu****

**Abstrakt.** XX əsrin sonlarında dünyada baş verən qlobal proseslər beynəlxalq siyasi mühitin əsaslı bir şəkildə dəyişməsinə səbəb oldu. Beynəlxalq sistemdə ortaya çıxan yeni müstəqil dövlətlərdən başqa qloballaşma nəticəsində böyük əhəmiyyət kəsb edən transmilli maliyə təşkilatları, qeyri hökümət təşkilatları kimi müxtəlif beynəlxalq aktyorların öz yerlərini alması beynəlxalq münasibətlər sisteminin transformasiyası ilə nəticələndi. Bu dəyişiklər dövlətlərin xarici siyasətində öz əksini tapdı. 1991-ci ildə müstəqilliyini əldə edən Azərbaycan beynəlxalq aləmə inteqrasiya fonunda beynəlxalq əməkdaşlığın imkanlarından istifadə edərkən eyni zamanda öz milli mənafelərini qorumaq məqsədiylə xarici siyasət kursunu yenidən formallaşdırdı. Azərbaycanın xarici siyasət prioritetləri sırasında Qərb ölkələrinin təmsil olunduğu Avropa Birliyi sisteminə (iqtisadi, siyasi, sosial, mədəni sahədə) və qlobal dünya siyasəti məkanına inteqrasiya mühüm yer tutur. Bu sistemə daxil olmaqla Azərbaycan həm özünün mövcud resurslarından xalqının firavan həyatnın təmin edilməsi istiqamətində daha səmərəli, təhlükəsiz və itkisiz istifadə etmək imkanı əldə edir. Həm də qabaqcıl dünya texnologiyalarından, investisiya və xarici kapitalın ölkə iqtisadiyyatına daha sürətlə daxil olması, qeyri-neft sektorunun inkişafına nail olunması imkanı qazanır.

**Açar sözlər:** beynəlxalq münasibətlər, qloballaşma, xarici siyasət, Azərbaycan

---

* Bakı Dövlət Universitetinin doktorantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: ibrahimova.ilaha@gmail.com
https://orcid.org/0009-0006-6078-9762
** Siyasi elmlər doktoru, professor,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Respublikası Milli Məclisinin deputatı; Bakı, Azərbaycan
E-mail: elshad.mirbashiroglu@gmail.com

**Məqaləyə istinad:** Əlizadə, İ., Mirbəşiroğlu, E. [2024] Qloballaşmanın Azərbaycanın xarici siyasətinə təsiri. *“Metafizika” jurnalı, 7*(3), səh.229-240.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.229-240

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 10.05.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 03.06.2024*
*Çapa qəbul edilmişdir: 01.07.2024*

## 1.Giriş (*Qloballaşmanın qısa tarixçəsi*)

Dünyanın bütününü əhatə etmə mənasını daşıyan ingiliscə "qlobal" sözü əsasən XIX-cu əsrin sonlarından etibarən istifadə edilməyə başlansa da, 1964-cü ildə Amerikalı tənqidçi Marshall McLuhan "qlobal kənd" anlayışını ortaya atmasıyla bu günkü mənada işlənməyə başlamışdır. 1980-lərin başlarında yayılmağa başlayan "qloballaşma" konsepsiyası bugün əsas olaraq malların, xidmətlərin və kapitalın artan hərəkətliliyi nəticəsində sərhədlərarası qarşılıqlı iqtisadi inteqrasiyanın və milli iqtisadiyyatların dünyaya inteqrasiyası olma prosesində dünyanın müxtəlif yerlərində varlıq göstərən cəmiyyət və dövlətlər arasında əlaqələrin kəskin artması, qlobal informasiya axınlarının böyük artımı və kommunikasiya texnologiyalarının sürətli inkişafı, dünya dövlətləri arasında qarşılıqlı əlaqələrin sürətlə artması və bir-birinə bağlı olması kimi ifadə edilə bilər.

Bugün dünyada hakim olan və bir çox tədqiqatçının üsündə durduğu anlayış qlobalaşmanın dünyadakı resursların paylaşılması və istifadəsi olduğudur. Bu anlayış bütün diqqətlərin qloballaşmanın iqtisadi tərəfinə cəlb etsə də qloballaşma təkcə iqtisadi bir proses deyil, həmçinin ictimai, kommunikativ, mədəni, texnoloji, siyasi və bir sıra aspektlərin də qlobal hala gəlməsidir.

Əslində, ilk mərhələdə, qloballaşmanın informasiya texnologiyaları sahəsində inkişafları izah etmək mümkündür. İnformasiya texnologiyasındaki dəyişikliklərin informasiya mübadiləsində zaman-kosmik amili aradan qaldırmasıyla birlikdə, ABD və Qərb ölkələrindən dünyaya vahid mədəniyyət yayıldı. Vahid mədəniyyət iqdisadiyyat sahəsini təsiri altına almasıyla birlikdə qloballaşma prosesi iqtisadiyyat sahəsində dəvam etdi.

1980-li illərin başlarında Ronald Reagan və Margaret Thatcherin dövründə sürətlənməyə başlayan beynəlxalq kapital hərəkətləri Şərq və Qərb blokları arasındaki dəmir pərdənin aradan qalxmasıyla birlikdə qlobal hal aldı. Bunun nəticəsində iqtisadi qloballaşma transmilli iqtisadi şirkətlərin, kapital hərəkətlərinin və kapitalist bazar şərtlərinin dünyaya yayılması birbaşa ölkələrin siyasətinə təsir göstərməyə başladı. Beləliklə iqdisadi qloballaşma ölkə siyasətlərinə öz təsiri göstərməyə başladı. Dövləti beynəlxalq sistemin vahid aktörü və ən vacib məqsədini milli təhlükəsizliyik olaraq görən realist teoriyanın əksinə iqtisadi inkişafın dövlət müdaxiləsi olmadan sərbəst bazarın sərbəst hərəkət yolu ilə əldə oluna biləcəyini və müdafiəçi siyasətin tərk edilməsinin vacibliyinə əsaslanan liberal düşüncə milli dövləti buna tək maneə olaraq gördü. Bu isə milli dövlətin ənənəvi strukturunda, səlahiyyət və funksiyalarında reformların aparılmasının vacibliyini ortaya çıxardı.

Bundan başqa, qloballaşma beynəlxalq sistemə yeni aktorların ortaya çıxmasına səbəb oldu. Berlin Divarının dağıdılması və dünyanın müxtəlif

regionlarında başlayan dağılma prosesi nəticəsində çox sayıda yeni dövlət çıxdı. Ancaq beynəlxalq sistemi dəyişdirən təkcə yeni dövlətlər deyildi. Qloballaşma ilə birlikdə artan təhlükəsizlik ehtiyacı, insan və narkotik vasitə alveri, ekologiya problemləri və s. beynəlxalq sistemdə qeyri hökumət təşkilatları, transmilli iqdisadi korporasiyaları kimi yeni beynəlxalq aktorların da yer almasına gətirib çıxardı. Beləliklə, əvvəllər məhz dövlətlərin yer aldığı beynəlxalq sistem qloballaşma nəticəsində dəyişmiş oldu.

**2.Qloballaşma şəraitində beynəlxalq münasibətlərin transformasiyası**

Soyuq münahiribədən sonra ortaya çıxan müxtəlif beynəlxalq aktyorlar beynəlxalq münasibətlərin və həmçinin beynəlxalq sistemin transformasiyasına səbəb oldu. Artıq əvvəllər olduğu kimi beynəlxalq münasibətlər təkcə dövlətlər arasında aparılmır, yeni müstəqil dövlətlər, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyətləri və çoxmillətli şirkətlər kimi beynəlxalq miqyaslı iqdisadi təşkilatların hər biri qloballaşma ilə birlikdə beynəlxalq aktyor kimi beynəlxalq arenada öz yerlərini aldılar. Beləliklə qlobalaşma təkcə iqdisadi, mədəni, sosial və sair sahələrdə deyil, eyni zamanda siyasi cəhətən də bütün dünyanı öz təsiri altına aldı.

Siyasətdə qloballaşma daxili və xarici siyasət arasındakı xəttin yavaş yavaş silinməsinə səbəb oldu. Artıq bir ölkənin problemi daxili problem olmaqdan çıxaraq regional və hətda qlobal bir hal aldı. Bundan başqa qlobal səviyyədə getdikcə artan ekologiya, sosial inkişaf, insan hüququ, teror, insan alveri, təhlükəsizlik kimi məsələlər bir ölkənin tək başına həll edə biləcəyi məsələlər olmaqdan çıxdı. Başqa ölkələrin iştirakı bir tərəfdən məsələlərin həllinin tapılmasına kömək edərkən, digər tərəfdən milli dövlətlərin suverenliklərinə zərər verməyə başladı.

Beləliklə 20-ci əsrə milli dövlətlər damğa vurarkən, 20-ci əsrin ikinci yarısında BMT kimi qlobal, Aİ kimi dövlətlərüstü, NAFTA və Mercosur kimi regional aktyorlar ortaya çıxdı və dünya siyasətinə təsir göstərməyə başladı. Klassik anlayışda milli dövlətlərin ən əsas xüsusiyyətlərindən biri olan suverenlik həm siyasi həm də hüquqi baxımdan mütləq olma xüsusiyyətini itirmişdir. Dövlətlərin öz iradəsi ilə qəbul etdiyi beynəlxalq müqavilələr suverenliyi ciddi şəkildə məhdudlaşdırdı.

J.Rosenau görə, son bir neçə ildəki qlobal siyasətdəki struktur dəyişiklikləri beynəlxalq münasibətlər sahəsində radikal dəyişikliklərə səbəb olan müxtəlif millətlərin və cəmiyyətlərin bir-birindən asılılığına gətirib çıxardı. Ancaq qarşılıqlı bağ və asılılıq masına gələn qloballaşma dünyada artan bir-birinə qarşılıqlılıq və asılılıq, müxtəlif dövlətlərin və millətlərin iqtisadi, siyasi, sosial və digər sahələrdə güclənən beynəlxalq inteqrasiya və əməkdaşlıq proseslərinə baxmayaraq birbirinə zidd olan maraqlarr, rəqabət və hətta mübarizə və bilvasitə güç tətbiqi sahəsinə çevrilmişdir.

Machiavelli bir dövlətin uzun bir müddət öz başına və sülh içində qala bilməyəcəyini çünki o başqalarını narahat etməsə də belə başqalarının onu narahat edə biləcəyini deyir [1, s.42]. Machiavelli-nin bu görüşü əslində bəzi ölkələrin geosiyasi mövqeləri, təbii sərvətləri və ya başqa amillər səbəbiylə ortaya çıxan qarşıdurmalar günümüzdə beynəlxalq aləmin iç üzünü əks etdirir. 20-ci əsrin ikinci yarısı mübarizənin təkcə hərbi qüvvənin tətbiq edilməsi yolu ilə deyil, "yumuşaq güc" ("soft power") vasitəsilə iqtisadi, maliyyə, mədəni-ideoloji ekspansiya yolu ilə aparıla biləcəyini göstərdi.

Milli dövlət demokratikləşmə, şəffaflıq, elastiklik kimi güclü təzyiqlərə məruz qalmaqla yanaşı özəlləşdirmə, siyasi islahatlar və sosial-iqtisadi siyasətin yenidən formalaşması kimi strategiyalar ölkələrin əsas siyasətinə çevrildi.

Ancaq dünyada baş verən bütün dəyiikliklərə baxmayaraq dövlətlər hər zaman öz milli maraqlarından hərəkət ediblər. "Milli maraqlar bir çox amillərin - daxili və xarici, siyasi, iqtisadi, təbii, iqlim, ekoloji və texnogen amillərin təsiri altında formalaşır. Amerika siyasi realizminin müəllifi Hans Morgentaunun (1891-1967) fikrincə, milli maraqlar dövlətin özü tərəfindən müəyyən olunan elə uzunmüddətli standartlardır ki, onların əsasında siyasi qərarları və hərəkətləri mühakimə etmək və qiymətləndirmək olar. Morgentau milli maraqları hakimiyyət və gücdə ifadə olunan siyasi realizm prinsipi səviyyəsinə qaldırır. Onun fikrincə, siyasi realizm dinamik başa düşülən milli maraqlarla bağlıdır. Başqa sözlə, dövrün tələblərindən asılı olaraq, onlar məzmun və əhəmiyyətcə müəyyən transformasiyaya uğraya bilər" [2, s.3].

**3.Qloballaşmanın Azərbaycanın xarici siyasətinə təsiri**

1991-ci il dekabr ayının 29-da keçirilən referendum nəticəsində 18 oktyabr 1991-ci il tarixdə Azərbaycan müstəqilliyini elan etdi. Müstəqilliyin ilk dövründə Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmış, daxili qeyri-sabitlik, iqtisadi böhran, keçid dövrünün çətinlikləri və digər ciddi problemlərlə üzləşmişdir. Buna baxmayaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası bütün çətinlikləri dəf edərək, düzgün strateji inkişaf yolunu müəyyən edərək, hazırda uğurla irəliləyən, regionda və dünyada öz mövqelərini möhkəmləndirən iqtisadi, siyasi və digər baxımlardan dinamik inkişaf edən müasir ölkəyə çevrilməkdədir. Belə ki, Azərbaycan Xəzər-Qafqaz məkanında regional əməkdaşlıq üçün olduqca mühüm, bir çox hallarda isə həlledici dövlət olub, xüsusən enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində əvəzsiz rol oynamaqdadır. Bu ümumi strategiyanın başlıca məqsədi Azərbaycan Respublikasının davamlı inkişafı və əhalinin rifahının təmin

*“Metafizika” Journal*
***2024, vol 7, issue 3, serial 27, pp.229-240***

edilməsi, eləcə də bütün regionda təhlükəsizlik və sabitliyin təmin olunmasına töhfə verməkdən ibarətdir.

Hər bir suveren dövlət beynəlxalq münasibətlərin subyekti kimi, özünün xarici siyasətini həyata keçirir. Bu siyasət sosial-iqtisadi və ictimai-siyasi inkişafın səviyyələri, coğrafi mövqe, milli-tarixi ənənələr, suverenliyin və təhlükəsizliyin təmin edilməsi məqsədləri ilə müəyyən edilir. Bu amillər xarici siyasət prizmasından milli maraqlar konsepsiyasında cəmləşir [2, s.3].

Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktının 16-cı maddəsində hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasının başqa dövlətlərlə münasibətlərini qurduğu prinsiplər belə sıralanmışdır: dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və zor işlətməklə hədələməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq, insanın hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, xalqların bərabərliyi və onların öz müqəddəratını təyin etmək hüququ, dövlətlərin əməkdaşlığı, beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək.

Azərbaycanın dünya inteqrasiya proseslərinə qatılmasını önəmli və zəruri edən bir sıra amillər mövcuddur. Bunlar arasında [3, s.20]:

- Dünyada gedən proseslərdən kənarda qalmağın zərərli və əslində mümkünsüz olması;
- Dövlət suverenliyinə təminat əldə edilməsi;
- Beynəlxalq-regional təhlükəsizliyin yaradılmasında və bəşəriyyətin qlobal problemlərinin həllində iştirak imkanı qazanılması;
- Ölkəmizin ərazi bütövlüyünün təmin olunması və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün beynəlxalq dəstəyə nail olunması;
- “Qafqaz birliyi” ideyasının gerçəkləşdirilməsi;
- Ölkədaxili sosial və iqtisadi problemlərin həllinə beynəlxalq birlik tərəfindən müxtəlifyönlü yardımlar göstərilməsi;
- Cəmiyyətimizdə insan haqları və s. müdafiəsi.

Xarici siyasəti dunya sisteminin yenidən qurulması prosesindən kənarda təsəvvur etmək mumkun deyildir. Azərbaycan qlobal miqyasda gedən dəyişiklikləri oz uzərində hiss edir. Bu təsirlər regional səviyyədə ozunu gostərən muxtəlif tendensiyalarla (siyasi, geosiyasi, iqtisadi, hərbi, ekoloji və mədəni xarakterli) uzlaşdırılmalıdır. Bu zaman əsas meyar xarici siyasətin prioritetləridir [7, s.231].

Çağdaş beynəlxalq inteqrasiya proseslərində iştirakın çoxlu istiqamətləri, vasitələri və formaları mövcuddur. Onların başlıcalarından birini beynəlxalq və regional təşkilat, qurum, struktur, proqram, layihə və s. qatılma təşkil edir

[3, s.20]. Birçox dövlət tərəfindən tanınan Azərbaycan xarici dövlətlər ilə diplomatik əlaqələr yaratdı. İƏT, Avropa İttifaqı, MDB, GUAM, Qara Dəniz İqdisadi Əməkdaşlıq Təşkilatı, NATO, Avropa Şurası, TÜRKPA, Körfəz Əməkdaşlıq Şurası, İSESKO, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Ərəb Dövlətləri Liqası, Afrika İttifaqı, BMT, YUNESKO kimi müxtəlif beynəlxalq və regional təşkilatlara üvz olan Azərbaycan xarici siyasətdə başqa ölkələr ilə iqdisadi ələqələrin yaranmasına və möhkəmlənməsinə böyük diqqət yetirdi.

Azərbaycanın dünya birliyində layiqli yer tutması ulu önder Heydər Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xarici siyasətin ana xəttini təşkil etmişdir. "Azerbaycanın yeni minillikdə inkişafı, bir tərəfdən, ölkənin bir epoxadan digərinə keçidi ile şərtlənmişdir. Lakin bununla yanaşı Sovet İttifaqının tərkibində olmuş keçmiş sosialist respublikası kimi Azerbaycan müstəqillik qazandıqdan sonra industrial eradan, postsovet məkanından mərhələ-mərhələ postindustrial epoxaya keçməyə başlamış, qloballaşan dünyanın bir çox mühüm əlamətləri ilə üzləşmişdir" [5, s.121]. Azərbaycanın beynəlxalq arenada daha çox tanınması və beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədiylə Heydər Əliyev dövründə xarici ölkələr ilə Azərbaycan arasında 431 beynəlxalq sənəd imzalanmışdır.

"Azərbaycan beynəlxalq əlaqələr sisteminə cəlb olunan bütün dövlətlərə münasibətdə onların ərazi böyüklüyü, hərbi gücü və iqtisadi potensialından asılı olmayaraq, dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanan müstəqil xarici siyasət həyata keçirir. Şəffaflıq və öncədən müəyyənləşdirmə Azərbaycanın xarici siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Azərbaycan bütün ölkələrlə dostluq və qarşılıqlı səmərəli ikitərəfli və çoxtərəfli əlaqələrini inkişaf etdirməklə öz regionunda və onun sərhədlərindən kənarda sülh içində birgə yaşama və mehriban qonşuluğu təşviq etməkdə çox maraqlıdır. Ölkəmiz mövcud beynəlxalq təhlükəsizlik sisteminin təməl daşı olan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasət həyata keçirir. Bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə qarışmamaq Azərbaycanın başqa ölkələrlə qarşılıqlı əlaqələrində əsas prinsiplərdir" [8, s.6].

Ancaq "mühüm geosiyasi məkanda yerləşən Azərbaycanın qabağında duran ən vacib məsələlərdən biri təcavüzkar Ermənistanın başlatdığı müharibənin dayandırılması olmuşdur. Bu məqsədlə 1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı" [6, s.6-7].

Heç şübhəsiz hər hansı bir ölkənin xarici siyasəti hər şəydən əvvəl öz milli marağına əsaslanır. Xarici siyasətin başlanğıc nöqtəsi milli maraqdır. “Milli maraqların həyata keçirilməsi, müstəqilliyin və suverenliyin gücləndirilməsi, ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş fəal xarici siyasət strategiyası, habelə özünəməxsus və bəzən ziddiyyətli siyasət yürüdən regional və regiondan kənarda olan aktorlarla modus vivendi-nin tapılmasına imkan yaradan elastiklik arasında mürəkkəb balans Azərbaycanın xarici siyasətinin səciyyəvi xüsusiyyətidir” [8, s.6]. Məhz buna görə ulu öndər Heydər Əliyev ilk olaraq Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində böyük səy göstərdi.

Ermənistanın eyni zamanda Azərbaycanın qonşusu olması da Azərbaycanın xarici siyasətinə təsir edən amillərdən bir digəridir. Dövlətlərin qonşularını seçmək hüququ yoxdur və Azərbaycanın Dağlıq Qarabağ Vilayətini və ətraf yeddi rayonu işğal altında tutmağa davam edən təcavüzkar Ermənistan ilə əlaqələri, ilk növbədə regiondakı dövlətlərə olmaq üzrə dünyanın müxtəlif dövlətlərinə də təsir etməkdədir. Bu vəziyyət eyni zamanda Azəbaycanın milli təhlükəsizliyinə də öz mənfi təsirini göstərərək böyük problem yaradır. Bu səbəblə, Azərbaycan ilə Ermənistan arasındaki müharibə şəraitinin aradan qaldrılması üçün ATƏT-ə bağlı Minsk Qrupu təsis edilmişdir. Qloballaşma nəticəsində dünyanın müxtəlif yerlərində baş verən qarşıdurmaların aradan qaldırılması və ölkələrə təhlükə yaradan məsələlərin həlli istiqaməində ölkələr bir araya gələrək “zirvə” adı altında müxtəlif yığıncaqlar keçirməyə başladılar. 1992-ci ilin 24 martında Helsinkidə keçirilən ATƏT-in Xarici İşlər Nazirləri Şurasında Dağlıq Qarabağdakı vəziyyət müzakirə olunduqdan sonra 1994-cü il dekabrın 5-6-da Budapeştdə Minsk Qrupu təsis edildi. Beləliklə qloballaşma nəticəsində Azərbaycan və Ermənistan arasındaki məsələ təkcə regional deyil eyni zamanda qlobal bir xarakterə bürünmüşdür. Bununla yanaşı, BMT-nin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləməsi və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnamə qəbul edərək Ermənistanı işğalçı dövlət kimi tanıması Azərbaycanın məqsədyönlü siyasətinin və uğurlu diplomatik fəaliyyətlərinin bir nəticəsidir.

Azərbaycanın milli gəlirinin mühüm bir hissəsini və iqtisadiyyatının əsas qismini neft təşkil edir. 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft strategiyasının reallaşdırılması vəzifəsi dövlətin xarici siyasətinin prioritetlərindən biridir. Bu strategiyanın əsas mahiyyəti Xəzər dənizinin Azərbaycan sektorunda mövcud olan karbohidrogen ehtiyatlarının qabaqcıl Qərb texnologiyası və investisiya imkanlarından səmərəli istifadə etməklə dövriyyəyə buraxılması, təhlükəsiz yollarla dünya bazarlarına çıxarılması, satışından əldə edilən vəsaitlə ölkənin digər sahələrinin, qeyri-neft sektorunun inkişafına nail olunması, bugünkü və gələcək nəsillərin firavan

həyatının təmin edilməsindən və s. ibarətdir. Bu sahədə Xəzərin sektor bölgüsü, neft kəmərlərinin çəkilişi və təhlükəsizliyi, investisiya təminatı, dünya neft-qaz bazarında lazımi yeri tutmaq və s. kimi çətinliklərin aradan qaldırılması və nəzərdə tutulan işlərin həyata keçirilməsi üçün xarici dövlətlərin imkanlarından maksimum yararlanmaq xarici siyasətin əsas prioritetlərindən birini təşkil edir [4, s.197]. Çünkü milli təhlükəsizlikdən sonra gələn bir digər vacib və xarici siyasətə təsir edən amil iqtisadi maraq və əlaqələrdir. İqtisadi güc xarici siyasətdə effektivliyini təmin edir. Xarici siyasətdə sərbəst hərəkət etmə qabiliyyəti dövlətin iqtisadi müstəqilliyi ilə sıx bağlıdır.

Azərbaycanın qlobal proseslərə uğurlu inteqrasiyası nəticəsində eldə etdiyi nailiyyətlər Azərbaycanı Cənubi Qafqazın ən gəlişmiş lider ölkəsinə çevirmişdir. Məlum olduğu kimi, Cənubi Qafqaz regionu geostrateji xarakterə malik olduğu üçün bütün dünyanın diqqət məkəzində yer alır. Müasir beynəlxalq münasibətlər sistemində baş verən sürətli dəyişikliklər şəraitində ayrı-ayrı dövlətlər və bütövlükdə bəşəriyyət terrorçuluq, etnik separatizm və münaqişələr, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi qırğın silahlarının yayılması, təbii ehtiyatların tükənməsi, əhalinin sayının durmadan çoxalması və kütləvi miqrasiyası, ətraf mühitin çirklənməsi və sair təhlükələr ölkələrin milli təhlükəsizlik problemiylə üzləşmələrinə səbəb olmaqdadır. Heç şübhəsiz bu amillərin hər biri hər bir dövlətin prioritetlərinin, təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsini, həmin risklərin qabaqlanması və aradan qaldırılması üzrə adekvat tədbirlərin həyata keçirilməsini zəruri edir. Azərbaycanın Cənubi Qafqaz regionunda yerləşməsi və zəngin neft yataqlarına sahib olması dünyanın diqqət mərkəzinə çevrilmişdir. Belə bir şəraitdə Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarının daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsi məqsədilə Azərbaycan milli təhlükəsizlik konsepsiyası təsdiq edilmişdir. Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri kimi, təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması, Avropa və Avratlantik strukturlarına inteqrasiya, beynəlxalq təhlükəsizliyə töhfə, beynəlxalq təşkilatlarla əməkdaşlıq, regional əməkdaşlıq və ikitərəfli münasibətlər (region ölkələri ilə əməkdaşlıq, qeyri-region ölkələri ilə əməkdaşlıq), müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və təhlükəsizliyin daxili siyasət vasitələri ilə təmin edilməsi göstərilir. Bu gün Azərbaycan dünyada baş verən çağırış və təhditlərə adekvat cavab verən, beynəlxaq arenada layiqli yer tutan müstəqil bir ölkə kimi adından söz etdirməkdədir.

**4.Nəticə**

Yuxarıda da qeyd olunduğu kimi, qloballaşma prosesi beynəlxalq sistemin bütün sahələrinə öz müsbət və eləcə də mənfi təsirlərini göstərmiştir. Qloballaşma iqtisadi, texlologiya, mədəniyyət və digər sahələri olduğu kimi beynəlxalq platformda yer alan ölkələrin də istər xarici istərsə də daxili siyasətinin transformasiyasına səbəb oldu. Dünyada varlıq göstərən başqa dövlətlər kimi, Azərbaycan da qloballaşmanın təsiri altına girdi. Müstəqilliyini qazandığı gündən ulu öndər Heydər Əliyevin başlatdığı uğurlu daxili və xarici siyasəti davam etdirərək Azərbaycanın beynəlxalq aləmdə qazandığı mövqeyini daha da möhkəmləndirən və nüfuzunu artıran İlham Əliyev xalqın etimadını qazanmışdır. Artıq Azərbaycan həm yerləşdiyi geostrateji məkanda həm də qlobal miqyasda baş verən dəyişikliklər baxımından çağırış və təhditlərə layiqli cavab verən bir ölkə halına gəlmişdir. Bu istiqamətdə regional, beynəlxalq və qlobal təşkilatlarla bütün sahələrdə əməkdaşlığını genişləndirən Azərbaycan öz milli maraqları çərçivəsində uğurlu xarici siyasətinə davam etməkdədir.

**ƏDƏBİYYAT**

1. Yurdusev, N. A. (2010). “Uluslararası İlişkiler” Öncesi. (Eds.: İ. D. Dağı, A. Eralp, F. E. Keyman, N. Polat, O. F. Tanrısever, & F. Yalvaç). *Devlet, Sistem ve Kimlik: Uluslararası İlişkilerde Temel Yaklaşımlar*. İstanbul, İletişim Yayınları, pp. 15-55.
2. Adıgözəlov, K. (2010, August 6). Beynəlxalq sülh və əməkdaşlıq mərkəzi. *Xalq qəzeti*, p. 3.
3. Musa, İ. M. (2011). *Azərbaycanın xarici siyasəti: III hissə: Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti*. 776 p.
4. Həsənov, Ə. M. (2005). *Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti*. Dərslik. Bakı, Azərbaycan nəşriyyatı, 631 p.
5. Mehdiyev, R. (2005). *Azərbaycan: qloballaşma dövrünün tələbləri*. Bakı, XXI - Yeni Nəşrlər Evi, 464 p.
6. Əhmədov, E. (2013). *Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər*. Bakı, Letterpress nəşriyyat evi, 452 səh.
7. Məmmədov, N. (2013). *Xarici siyasət: reallıqlar və gələcəyə baxış*. Bakı, Qanun nəşriyyatı, 264 səh.
8. Məmmədyarov, E. (2009, July 3). *Azərbaycanın xarici siyasəti: təsir edən amillər və prioritetlər*. Azərbaycan, p. 6. https://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyul2009/84940.htm

## REFERENCES

1. Yurdusev, N. A. (2010). Before "International Relations". (Eds.: I. D. Daghi, A. Eralp, F. E. Keyman, N. Polat, O. F. Tanrisever, & F. Yalvach). State, System and Identity: Fundamental Approaches in International Relations. Istanbul, Iletishim Publications, pp. 15-55. (in Turkish)
2. Adigozelov, K. (2010, August 6). Center for international peace and cooperation. *Khalq newspaper*, p. 3. (in Azerbaijani)
3. Musa, I. M. (2011). *Azerbaijan's foreign policy: Part III: Contemporary international relations and Azerbaijan's foreign policy*. 776 p. (in Azerbaijani)
4. Hasanov, A. M. (2005). *Modern international relations and foreign policy of Azerbaijan*. Textbook. Baku, Azerbaijan publishing house, 631 p. (in Azerbaijani)
5. Mehdiyev, R. (2005). *Azerbaijan: requirements of the era of globalization*. Baku, XXI – Yeni Publications House, 464 p. (in Azerbaijani)
6. Ahmadov, E. (2013). *Azerbaijan's foreign policy: relations with international security and cooperation institutions*. Baku, Letterpress publishing house, 452 p. (in Azerbaijani)
7. Mammadov, N. (2013). *Foreign policy: realities and vision for the future*. Baku, Qanun publishing house, 264 p. (in Azerbaijani)
8. Mammadyarov, E. (2009, July 3). *Azerbaijan's foreign policy: influencing factors and priorities*. Azerbaijan, p. 6. https://anl.az/down/megale/azerbaycan/azerbaycan_iyul2009/84940.htm (in Azerbaijani)